Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası
Azərbaycan Qeyri-Hökumət Təşkilatları Koalisiyası
For Improving Transparency in Extractive Industries
The Coalition of Azerbaijan Non-Goverment Organization

# "MƏDƏN SƏNAYESİNDƏ ŞƏFFAFLIĞIĞN ARTIRILMASI" KOALİSİYASININ İNFORMASİYA BÜLLETENİ

# № 19

**Redaksiya heyəti**

**Redaktor:**
Dünya Sakit

**Məsul katib:**
Süheylə Cəfərova

**Tərcüməçi:**
Nərmin Mirzəyeva

**Ünvan:**
AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə

**Tel:** 598 44 31, Faks: 598 44 31
**Mob.:** 357 04 62
**E-mail:** office@eiti-az.org

## Mündəricat


- Koalisiyada validator qrupu ilə görüş keçirilib (2)
- İşçi plan Memorandum tərəflərinin iştirakı ilə müzakirə və qəbul olunmalıdır (3)
- Neft Fondundan xərcləmələrin səmərəliliyi qiymətləndiriləcək (4)
- Koalisiyanın XII Ümumi Yığıncağı fevralın 21-də keçiriləcək (5)
- Koalisiya Neft Fondunun Müşahidə Şurasının tərkibi ilə bağlı bəyanat qəbul edib (5)
- Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilişi prosesində şəffaflıq təmin olunmur (7)
- Koalisiya dəyərləndirmə üzrə ilkin hesabatla bağlı mövqeyini validatora göndərib (8)
- EİTİ üzrə Memorandum tərəflərindən ibarət İşçi Qrup yaradılacaq (9)
- Azərbaycan Dövlət Neft Fondunun büdcəsi neftin qiymətinin 70 dollar həddi ilə hesablanıb (10)
- Azərbaycanda qızıl hasilatına başlanması aprel ayına planlaşdırılır (11)
- Koalisiyanın 2009-cu il üzrə fəaliyyət proqramı hazırlanıb (12)
- Neft Fondu investisiya siyasətində korrektə, valyuta tərkibində dəyişiklik etmək niyyətindədir (12)
- Ötən il Dövlət Neft Fondunun xarici menecerlər idarə edən vəsaitləri üzrə gəlirlilik cüzi olub (13)
- Koalisiya Neft Fondunun büdcəsinin təsdiq olunmaması ilə bağlı bəyanat verib (14)
- Koalisiya üzvü EİTİ İdarə Heyətinə tamhüquqlu təmsilçi seçilib (15)

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

## Koalisiyada validator qrupu ilə görüş keçirilib

Yanvarın 13-də Mədən Sənayesində Şəffaflığın Artırılması QHT Koalisiyası Şurasının əvvəlki və indiki tərkibi, həmçinin sıravi üzvləri ilə Azərbaycanda dəyərləndirməni aparan Coffey İnternational beynəlxalq şirkətinin nümayəndələri arasında görüş keçirilib. Koalisiyanın ofisində baş tutan görüşdə məqsəd Beynəlxalq Şəffaflıq Təşəbbüsünün Azərbaycanda icrası prosesi ilə bağlı Koalisiyanın mövqeyini öyrənmək olub.

Görüşdə Azərbaycanda dəyərləndirməni aparan konsorsiuma daxil olan Coffey İnternational şirkətinin nümayəndəsi Tim Ruffer, İPAN şirkətinin neft-qaz sənayesi üzrə mütəxəssisi Trond Kubberud və Azərbaycanda fəaliyyət göstərən "Balance-audit" şirkətinin rəhbəri Əli Nəbiyev iştirak edirdi. Koalisiyadan isə Şura üzvləri Mirvari Qəhrəmanlı, Dünya Sakit, Oqtay Güləliyev, İlham Hüseynli, Şura əlaqələndiricisi Azər Mehtiyev, Şuranın keçmiş tərkibindən Telman Zeynalov, Sevgim Rəhmanov, sıravi üzvlərdən isə Zöhrab İsmayılov, Vüqar Bayramov, Razi Nurullayev, İlham Şaban görüşə qatılmışdı. Qeyd edək ki, Şuranın əvvəlki tərkibinə daxil olan Sabit Bağırov, İnqilab Əhmədov və Miravri Qəhrəmanlı ilə dəyərləndiricilər fərdi qaydada görüşlər keçiriblər.



Görüş zamanı xarici qonaqlar Beynəlxalq EİTİ Katibliyi tərəfindən müəyyənləşdirilmiş dəyərləndirmə indikatorları əsasında Koalisiyanın Azərbaycandakı proseslərlə bağlı rəyini öyrəniblər. Koalisiya üzvü Z.İsmayılov 18 dəyərləndirmə indikatoru üzrə mövqeyini açıqlayaraq, EİTİ-ın icrası üçün Azərbaycanda daimi fəaliyyət göstərən çoxtərəfli İşçi qrupun yaradılmaması, İşçi planın olmaması, şrikətlərin fərdi hesabatlılıqdan qaçması, hökumətin EİTİ-ın icrası prosesinə mane olan bütün səbəbləri aradan qaldrımaq üçün yetərincə fəallıq göstərməməsi barədə validator qrupuna ətraflı məlumat verib. Bildirib ki, bu çatışmazlıqlar üzündən Koalisiyanın hesabat formalarının təkmilləşdirilməsi, şirkətlər tərəfindən təqdim edilən hesabatlardakı çoxsaylı və təkrarlanan qüsurların aradan qaldırması və sair istiqamətdəki təkliflərinin bütün tərəflərin iştirakı ilə müzakirəsinə nail olunmayıb. Bundan əlavə, şirkətlər sosial ayırmaları və fiziki şəxslərin gəlir vergisi üzrə hökumətə ödənişləri barədə hesabat vermirlər. Halbuki EİTİ bütün ödənişlər barədə hesabatlılığı nəzərdə tutur. Daha sonra Z.İsmayılov şitkətlərin təqdim etdikləri hesabatların

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

beynəlxalq auditor rəyinə əsaslanması barədə danışaraq, bu göstərici üzrə Koalisiyanın rəyinin mənfi olduğunu vurğulayıb: “Hesbat verən şirkətlərin bir çoxu, ən əsası isə yerli şirkətlər beynəlxalq auditdən keçmir. Elə ən böyük yerli şirkət olan ARDNŞ-də hələ belə audit olmayıb. Hökumət orqanları da Dövlət Neft Fondu istisna olmaqla, beynəlxalq auditdən keçməyib. Bunu daha çox beynəlxalq mühasibat uçotu standartlarına keçidlə əsaslandırırlar. Bu proses isə illərdir ki, yubadılır.”

Şura üzvü Oqtay Gülalıyev Hökumət komissiyasının üçtərəfli Anlaşma Memorandumunu işçi plan kimi təqdim etməsinə toxunaraq, həmin sənədin 12-ci bəndini qonaqların diqqətinə çatdırıb: “Bu bənddə qeyd olunur ki, Memorandum tərəflərin heç biri üçün hüquqi öhdəlik yaratmır. Halbuki işçi plan dəqiq qrafiki olan, icrası üçün tərəflərdə öhdəlik yaradan bir sənəd olmalıdır. Azərbaycanda çoxtərəfli işçi qrup da yaradılmayıb. Tərəflər yalnız hesabatlara dair audit rəyinin açıqlanma mərasimində bir araya gəlirlər ki, bu görüş də formal xarakter daşıyır. Şirkətlərin həmin mərasimlərə göndərdikləri şəxslər qaldırılan bütün məsələlərlə bağlı “səlahiyyətli olmadıqlarını” deyirlər. Memorandum imzalanarkən hökumətin onun və təqdim edilən hesabat formalarının təkmilləşdiriliıləcəyinə dair verdiyi vədi elə vəd olaraq qalıb. Koalisiyanın bu məsələlərlə bağlı təkliflərinin heç biri qəbul olunmayıb. Bundan başqa, hesabatların anlaşıqlı və hamı tərəfindən başa düşülən dildə geniş ictimaiyyətə çatdırılması istiqamətində işləri də yetərli saymaq mümkün deyil.” Şura üzvü şirkətlərin Koalisiya ilə əməkdaşlığa meylli olmadıqlarını qeyd edərək, misal kimi ARDNŞ-nin Koalisiya tərəfindən göndərilən sorğuları cavablandırmamasını göstərib.

Validator qrupunun misal olaraq hansı sorğunun ARDNŞ tərəfindən cavablandırılmadığı barədə sualına Şura üzvü Dünya SAKİT cavab verərək 2008-ci ilin avqustunda “Əsrin kontraktı” üzrə Azərbaycana çatan neftin miqdarı barədə göndərilən sorğunu onların diqqətinə çatdırıb: “Hesabatda bu, dəyər ifadəsində göstərilir. Koalisiya ekspertlərində hökumətə çatan neftin həcminin müqavilədə nəzərdə tutulan mərhələyə uyğun olmaması barədə ciddi şübhələr var. Biz bu məsələyə aydınlıq gətirməyə çalışsaq da, müqavilə üzrə hökumətə çatası nefti alan və satışını həyata keçirən ARDNŞ-nin sorğumuza cavab verməməsi üzündən buna nail ola bilmirik.” Şura üzvü həmçinin çoxtərəfli İşçi qrupu və işçi planın olmamasına dair həmkarları tərəfindən ifadə olunan rəyi bölüşdüyünü vurğulayıb.

Şura üzvü İlham Hüseynli də həmkarları ilə həmfikir olduğunu bildirib və Azərbaycanda EİTİ prosesinin formal xarakter daşımaması üçün Koalisiyanın təkliflərinin nəzərə alınmasının çox vacib olduğunu qeyd edib.

❋ ❋ ❋

## İşçi plan Memorandum tərəflərinin iştirakı ilə müzakirə və qəbul olunmalıdır

Yanvarın 9–da Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü üzrə Hökumət Komissiyasından Koalisiyaya “Azərbaycan Respublikasında MHŞT-nin tətbiqi üzrə İşçi plan” adlı sənəd göndərilərək, yanvarın 13-dək ona münasibət bildirilməsi xahiş olunub. Xatırladaq ki, İşçi planın olması EİTİ prosesi üzrə əsas qiymətləndirmə indikatorlarından və Koalisiyanın təkliflərindən birini təşkil edir.

Komissiyanın məktubu həmin keçirilən Koalisiya Şurasında müzakirə olunub. Şura üzvləri İşçi planın indiyədək qəbul edilməməsini mənfi hal kimi qiymətləndirməklə yanaşı, belə bir mühüm sənədin qısa müddətdə müzakirə olunmasını mümkün saymadıqlarını qeyd

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

ediblər. Müzakirələr zamanı işçi planın hazırlanması üçün üçtərəfli qrupun yaradılması təklifi ilə çıxış edilməsi qərara alınıb. Hökumət Komissiyasının rəhbəri, Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümova Şuranın mövqeyini əks etdirən məktub göndərilərək, Koalisiya Şurasının qərarının nəzərə alınması xahiş edilib. Qərarda bildirilir ki, **“İşçi plan” adlı sənədin hazırlanması və bu zaman tərəflərin mövqelərinin uyğunlaşdırılması üçün Anlaşma Memorandumunun tərəflərinin iştirakı ilə üçtərəfli İşçi qrupunun yaradılması zəruridir. İşçi qrupun hazırladığı “İşçi plan” Anlaşma Memorandumunun bütün tərəflərinin iştirak etdiyi yığıncaqda müzakirə edilərək qəbul olunmalıdır.**

## Neft Fondundan xərcləmələrin səmərəliliyi qiymətləndiriləcək

Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası Dövlət Neft Fondunun vəsaiti ilə həyata keçirilən layihələrin səmərəliliyi ilə bağlı araşdırma aparacaq. Bu barədə Koalisiya Şurasının yanvarın 9-da keçirilən iclasında qərar qəbul edilib.



Qeyd edək ki, DNF-dən xərcləmələr, bu prosesdə şəffaflıq və hesabatlılıq prinsiplərinə əməl olunması məsələsi Şuranın 2008-ci ilin oktyabr ayında keçirilən iclaslarında geniş müzakirə olunub. Əsasən Koalisiya üzvü, araşdırmaçı-jurnalist Hicran Həmidovanın Fond vəsaitləri hesabına reallaşdırılan qaçqın və məcburi köçkünlərin mənzil

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

şəraitinin yaxşılaşdırılmasını nəzərdə tutan layihə üzrə apardığı araşdırmanın nəticələri üzərində qurulan müzakirələrdən sonra DNF-dən xərcləmələrlə bağlı Təkliflər paketini hazırlamaq üçün Azər Mehtiyev, Hicran Həmidova , Qubad İbadoğlu və Əliməmməd Nuriyevdən ibarət İşçi qrupu yaradılmışdı. Ötən müddət ərzində Qrupun işinin aktiv olmaması nəzərə alınaraq, yanvarın 9-da Şuranın qərarı ilə Oqtay Gülalıyev, Mirvari Qəhramanlı, İlham Hüseynli, Əliməmməd Nuriyev, Zöhrab İsmayıl, Hicran Həmidova və Azər Mehtiyevdən ibarət yeni qrup yaradılıb. Qrup 1 ay müddətində neft gəlirlərinin xərclənməsinin səmərəliliyi ilə bağlı tədqiqatlar əsasında Koalisiyanın ictimai nəzarət tədbirlərini gücləndirmək sahəsində təkliflər hazırlayacaq.

İşçi Qrupun ilk iclasında DNF-dən xərcləmələrlə məşğul olan Vüqar Bayramovun prosesə cəlb edilməsi qərara alınıb. Qərar Koalisiya Şurası tərəfindən təsdiqlənib. Qrupun iclasında həmçinin DNF-dən xərcləmələrlə bağlı silsilə tədbirlərin keçirilməsi, neft gəlirlərinin müxtəlif daxilolma mənbələri istiqamətində araşdırmaları davam etdirib bütün tərəflərin iştirakı ilə tədbirin keçirilməsinə qərar verilib.

❋ ❋ ❋

## Koalisiyanın XII Ümumi Yığıncağı fevralın 21-də keçiriləcək

Mədən Sənayesində Şəffaflığın Artırılması QHT Koalisiyasının 12-ci Ümumi Yığıncağının vaxtı müəyyənləşdirilib. Bu barədə qərar Koalisiya Şurasının 16 yanvar tarixli iclasında qəbul olunub. Şuranın qərarına əsaəsn 12-ci Ümumi Yığıncaq fevralın 21-də keçiriləcək.

Xatırladaq ki, Koalisiyanın Əsasnaməsinə görə, 12-ci Ümumi Yığıncaq ötən ilin ikinci yarısında keçirilməli idi. Şuranın 2008-ci il dekabrın 3-də keçirilən iclasında Yığıncağın dekabrın 27-də keçirilməsi barədə qərar qəbul olunsa da, iştirak üçün qeydiyyatdan keçən üzvlərin say azlığı üzündən dekabrın 19-da tədbir təxirə salınmışdı.

Koalisiya Şurasının 16 yanvar tarixli qərarına əsasən Ümumi Yığıncağa hazırlıqla bağlı Azər Mehtiyev, Oqtay Gülalıyev, İlham Hüseynli, Dünya Sakit və Sevil Həmidovadan ibarət İşçi qrup yaradılıb. Eyni zamanda qərara alınıb ki Əsasnamənin tələblərinə uyğun olaraq, İnternet şəbəkəsi vasitəsilə Koalisiya üzvlərinə tədbirdə iştirakla bağlı qeydiyyatdan keçmələrinə dair müraciət göndərilsin.

İşçi qrupda aparılan müzakirələrdən sonra Yığıncağın ilkin gündəlik layihəsi tərtib olunaraq təsdiq edilməsi üçün Şuraya təqdim olunub.

❋ ❋ ❋

## Koalisiya Neft Fondunun Müşahidə Şurasının tərkibi ilə bağlı bəyanat qəbul edib

Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası Dövlət Neft Fondunun Müşahidə Şurasında vətəndaş cəmiyyətinin təmsilçiliyi ilə bağlı bəyanatla çıxış edib. Bəyanatda bildirilir ki, Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli sərəncamı ilə Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) Müşahidə Şurasının növbəti yeni tərkibi təsdiq edilmişdir. Sərəncama əsasən Fondun Müşahidə Şurasının tərkibi yeni heyətdə 7 nəfərdən ibarətdir. Onlardan 5-i hökuməti (icra hakimiyyətini), 1-i Milli Bankı və 1-i də Milli Elmlər Akademiyasını təmsil edir. Bu qurumların heç biri ictimai birliklərni təmsilçisi deyildir.

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamənin (Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 434 saylı fərmanı ilə təsdiq olunub) 5.4. maddəsində nəzərdə tutulur ki, Fondun fəaliyyətinə ümumi nəzarəti təmin etmək məqsədilə müvafiq dövlət orqanlarının və ictimai təşkilatların nümayəndələrindən, habelə digər şəxslərdən ibarət Müşahidə Şurası formalaşdırılır. Beləliklə, əvvəllər olduğu kimi, bu dəfə də Əsasnamənin tələblərinə əməl edilməyib və Müşahidə Şurasının tərkibinə ictimai təşkilatların nümayəndələri daxil edilməyib.




Qeyd etmək lazımdır ki, Müşahidə Şurasının bundan əvvəlki tərkibi 9 nəfərdən təşkil olunmuşdu və burada hazırda təmsil olunan qurumlardan əlavə Milli Məclisin də 2 təmsilçisi daxil idi. Lakin yeni tərkibə nədənsə Milli Məclisin təmsilçiləri daxil edilməyib və bununla da ölkənin ali qanunverici orqanının DNF-nin fəaliyyətinə bu cüzi nəzarət imkanı da aradan qaldırılmış oldu.

ARDNF-in fəaliyyətə başladığı dövrdən bəri artıq 3-cü dəfədir ki, Fondun Müşahidə Şurasının tərkibi təsdiq olunur. Yuxarıda qeyd olunduğu kimi, Fondun Əsasnaməsində də nəzərdə tutulmasına rəğmən, indiyədək Fondun Müşahidə Şurasının tərkibinə ictimai təşkilatların təmsilçiləri daxil edilməyib. İctimai Birliklərin MSŞA Koalisiyası ölkənin mövcud qanunvericiliyinin tələblərinin dəfələrlə bu formada pozulmasından dərin narahatlığını bildirməklə yanaşı, həm də bunu bütün Azərbaycan xalqının – həm indiki, həm də gələcək nəsillərin – sərvəti olan nəhəng həcmlərdə ictimai vəsaitlərin (böyük neft gəlirlərinin) istifadəsinə vətəndaş cəmiyyətinin nəzarətinin məhdudlaşdırılması istiqamətində atılmış addım hesab edir.

Təəssüfləndirici haldır ki, MHŞT-nin ölkədə tətbiqinə dair üçtərəfli Anlaşma Memorandumunda tərəf kimi çıxış edən Koalisiya ARDNF-nin Müşahidə Şurasında ictimai birliklərin təmsilçiliyinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinə bir neçə dəfə müraciət etməsinə baxmayaraq, həmin müraciətlər hələ də cavabsız qalmışdır.

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

Koalisiya ARDNF-nin fəaliyyətinə əlavə şəffaflıq gətirilməsi məqsədilə onun fəaliyyəti, o cümlədən gəlir və xərcləri barədə məlumatların dövrü olaraq yayılmasının təşkili, habelə hasilat sənayesindən hökumətə daxilolmalar və burada çalışan şirkətlərin hökumətə ödəmələri üzrə hesabatların tutuşdurulması nəticələri ilə bağlı müstəqil mühasiblərin rəyinin ildə iki dəfə açıqlanması kimi addımları ictimai vəsaitlərin istifadəsinin şəffaflığının artırılmasına yönəlik addımlar kimi qiymətləndirir, lakin hesab edir ki, bunlar neft gəlirlərinin gündən-günə sürətlə artdığı, xərcləmələrin çoxaldığı indiki şəraitdə şəffaflığın təmin olunması üçün heç də kifayət deyildir.

Hesab edirik ki, vətəndaş cəmiyyətinin fəal iştirakı ilə mədən sənayesində şəffaflığa və təbii sərvətlərin səmərəli idarə olunmasına nail olmaq missiyası altında 130-dan çox QHT-nin birləşdiyi MSŞT Koalisiyasının ARDNF-nin fəaliyyətinə ümumi ictimai nəzarətdən kənarda qalması neft gəlirlərinin şəffaf istifadəsinə ictimai inamı azaldır və bütövlükdə ictimai vəsaitlərin səmərəli idarə olunması riskini artırır.

Bütün bunları nəzərə alaraq, Koalisiya Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamənin tələbinə uyğun olaraq Fondun fəaliyyətinə ictimai nəzarətin təmin edilməsi məqsədilə Müşahidə Şurasının tərkibinə ictimai təşkilatların nümayəndələrinin daxil edilməsi tələbi ilə çıxış edir.

Qeyd edək ki, bəyanat Koalisiya Şurasının 09 yanvar 2009-cu il tarixli iclasında qəbul edilib və ictimaiyyətə açıqlanıb.

## Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilişi prosesində şəffaflıq təmin olunmur




Yanvarın 23-də Koalisiyanın üzvü olan Neftçilərin Hüquqlarını Müdafiə Komitəsi Dövlət Neft Fondunun vəsaitləri hesabına həyata keçirilən “Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilişi” layihəsi üzrə monitorinqin nəticələrini ictimaiyyətə açıqlayıb. Komitənin sədri Mirvari Qəhrəmanlının sözlərinə görə, monitorinq zamanı bir sıra problemlər aşkar edilib. Belə ki, kəmərin keçdiyi torpaq sahələrinin mülkiyyətçilərinə kompensasiyanın ödənilməsi nəzərdə tutulsa da, faktiki olaraq 4 min vətəndaşın mülkiyyət hüququ pozulub: “Oğuz rayonu ərazisində bəzi mülkiyyətçilərə hər hektar torpağa görə min manatdan da az kompensasiya ödənilib. Bu da bazar qiymətindən çox aşağıdır”. M.Qəhrəmanlı su kəmərinin çəkilişini həyata keçirən “Azərsu” ASC-nin, həmçinin podratçı təşkilatların məsələlərlə bağlı heç bir suala cavab vermədiyini qeyd edib. Layihənin eksperti Rövşən Ağayevin bildridiyinə görə, 260 km uzunluğunda olan Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilişi üçün 730 milyon manat vəsait ayrılıb ki, bu, kifayət qədər böyük məbləğdir: “ Bu o deməkdir ki, kəmərin hər kilometri 2,8 mln. manata (3,4 mln. dollara) başa gələcək. Deməli, bu məbləğ 1 kilometr yolun çəkilişinə sərf olunan vəsaitə bərabərdir. Adi riyazi yanaşma da onu söyləməyə əsas verir ki, 1 km yolun çəkilişi anoloji ölçüdə su kəmərinin çəkilişindən əhəmiyyətli dərəcədə baha olmalıdır. Digər tərəfdən, başqa ölkələrdə gerçəkləşdirilən oxşar layihələrlə də

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

müqayisə apardıqda Oğuz-Qəbələ-Bakı su kəmərinin bahalı layihə olduğu üzə çıxır. Məsələn, hazırda Rusiyada Volqoqrad və Həştərxan vilayətlərini, Kalmıkiya və Stavropolu birləşdirən 1400 km uzunluğunda transregional su kəmərinin tikintisiə hazırlıqlar başlanıb. Bu kəmərə 20 mlrd. rubl, yaxud 750 mln. dollar, yəni hər km üçün 550 min dollar xərclənəcəyi gözlənilir. Rusiya mənbələrinin məlumatına görə, adıçəkilən su xəttinin diametri ən azı 1000, maksimum 1500 millimetr ola bilər. Ölçü etibarı ilə həmin kəmərin Oğuz-Qəbələ-Bakı su xəttindən uzağı 2 dəfə kiçik olacağı gözlənlisə də, onun qiyməti Azərbaycandakı kəmərdən az qala 7 dəfə ucuz ola bilər. Bəzi hallarda kəmərin dəyərinin yüksək olmasını onun keçdiyi ərazilərin relyefinin mürəkkəb olması (yüksək dağlıq ərazilərdən keçməsi) ilə izah edilir . Amma mütəxəssislərin kəmər boyu apardığı müşahidələr onu deməyə əsas verir ki, ən yaxşı halda kəmərin keçidiyi ərazilərin uzağı üçdə biri nisbətən yüksək olan dağlıq hissələrdən keçib.”

Kəmərin çəkilişi prosesində narahatlıq yaradan bir məqam da layihə barədə ictimaiyyətə geniş məlumatların çatdırılmaması, vətəndaş cəmiyyəti qurumlarının sorğularının cavablandırılmamasıdır.

## Koalisiya dəyərləndirmə üzrə ilkin hesabatla bağlı mövqeyini validatora göndərib



Azərbaycanda EİTİ prosesini dəyərləndirən Coffey International Development şirkəti prosesi yekunlaşdıraraq ilkin hesabatını Çoxtərəfli Anlaşma Memorandumu tərəflərinə təqdim edib. Anlaşma tərəflərindən biri olan İctimai Birliklərin Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası hesabatla tanış olaraq, öz təkliflərini validator qrupuna göndərib.

Koalisiya validator qrupunun yerinə yetirdiyi işi yüksək qiymətləndirdiyini bildirərək, bir sıra mühüm məsələlərin orada əksini tapmasını, yaxud daha dəqiq əks olunmasını məqsədəuyğun saydığını vurğulayıb. Bu məsələlərdən birincisi hesabatın 4-cü bölümündə əksini tapan Çoxtərəfli daimi komitənin yaradılması zəruriyyəti ilə bağlıdır. Koalisiya hesab edir ki, ilkin hesabatda bu məsələnin açıq şəkildə əksini tapması zəruridir:

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

"Çoxtərəfli daimi qrupun yaradılması bizim üçün çox önəmli məsələlərdən biridir. Hesab edirik ki, indiyəcən vətəndaş cəmiyyətinin ölkədə EİTİ prosesi ilə bağlı bir sıra narahatlıqlarının kifayət qədər müzakirə edilməməsi və qərarlar verilməməsi məhz çoxtərəfli daimi komitənin olmaması ilə bağlıdır. Belə bir komitənin yaradılmaması gələcəkdə də vətəndaş cəmiyyətinin səsinin kifayət qədər eşidilməsinə mane ola bilər."

İkinci mühüm məsələ 8-ci dəyərləndirmə göstəricisi ilə bağlıdır: "Hesabatda bu göstərici üzrə QHT Koalisiyasının hər hansı bir iradının olmaması ifadə olunub. Halbuki biz müsahibələrdə və görüşlərdə bəyan etmişdik ki, indiyəcən İşçi planının olmaması, çoxtərəfli daimi komitənin yaradılmaması, hesabat formalarının təkmilləşdirilməsi ilə bağlı Koalisiyanın təkliflərinin kifayət qədər müzakirə edilməməsi, məsələlərinin həllini tapmaması hökumətin EİTİ tətbiqi ilə bağlı bütün maneələri aradan qaldırmaq istiqamətində fəaliyyətinin tam olmadığı göstərir. Bu mövqeyin nəzərə alınmasını zəruri hesab edirik."

Koalisiya şirkətlərin Dövlət Sosial Müdafiə Fonduna ödəmələrinin hesabatlara daxil edilməsi ilə bağlı mövqeyində qalaraq, bunun EİTİ tələblərindən kənara çıxmadığını vurğulayır: "EİTİ prosesi şirkətlərin dövlətə bütün növ ödəmələrinin hesabata daxil edilməsini tələb edir. Şirkətlərin Dövlət Sosial Müdafiə Fonduna ödəmələrinin də hesabata daxil edilməsi ilə bağlı Koalisiyanın tələbi buradan qaynaqlanır. Digər tərəfdən, hazırda istifadə olunan hesabat formaları Memorandum tərəflərinin iştirakı ilə keçirilən iclasda təsdiq olunan zaman Koalisiya ilkin hesabatın hazırlanması dövrünün ləngidilməməsi naminə güzəştə gedərək formaların təsdiqinə belə bir şərtlə razılıq vermişdi ki, bir müddətdən sonra bu məsələyə yenidən baxılsın. Təəssüf ki, bu istiqamətdə indiyə qədər ehtiyac duyulan addımlar atılmayıb."

Beləliklə, bütün deyilənləri nəzərə alaraq, Koalisiya dəyərləndirmə prosesinin EİTİ tarixində ilk olmasını çox önəmli hadisə sayır və ümid edir ki, təkrarən səslənən iradlarının hesabatda əksini tapması ümumi işin xeyrinə olar, EİTİ-ın Azərbaycanda yaxın gələcəkdə daha təkmil və səmərəli olması üçün geniş yol açar.

✵ ✵ ✵

## EITI üzrə Memorandum tərəflərindən ibarət İşçi Qrup yaradılacaq

Yanvarın 30-da Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü üzrə Hökumət Komissiyasından Memorandum tərəflərinə Çoxtərəfli İşçi Qrupun formalaşdırılması prosesinə dair məktub daxil olub. Məktubda qeyd olunur: "Bildiyiniz kimi, Azərbaycan Qiymətləndirmə prosesinin son mərhələsindədir və artıq Qiymətləndirici tərəfindən təqdim olunmuş Qiymətləndirmə üzrə ilk layihə hesabatı nəzərimizdən keçirilmiş və ona dair rəylər verilmişdir. Eyni zamanda Qiymətləndirici layihə hesabatını MHŞT üzrə Beynəlxalq Katibliyinə təqdim etmişdir və MHŞT üzrə Beynəlxalq İdarə Heyətinin nəzdində yaradılmış Qiymətləndirmə üzrə xüsusi komissiya sözügedən layihə hesabatı nəzərdən keçirmişdir. İlkin nəticələrə əsasən Azərbaycanda artıq mövcud olan MHŞT üzrə Çoxtərəfli Qrupun (Anlaşma Memorandumunun tərəfləri) formallaşdırılması və bu qrupun ildə 3 görüşünün keçirilməsi məqsəduyğun hesab edilmişdir. Bunları nəzərə alaraq yuxarıda qeyd olunanların qısa müddətdə həyata keçirilməsini məqsəuyğun hesab edirik.

Bu məsələyə dair təkliflərinizi 2009-cu il fevral ayının 3-ü saat 17.00-dək bizə bildirə bilərsiniz. Qeyd olunan vaxtadək bu məsələyə dair münasibətin bildirilməməsi onun siz tərəfdən qənaətbəxş qəbul edilməsi kimi qiymətləndiriləcəkdir."

Fevralın 2-də Komissiyadan bu məsələ ilə bağlı göndərilən ikinci məktubda qeyd olunur ki, "rəsmiləşdirilməsi təklif edilən Azərbaycanda MHŞT-nin tətbiqinə nəzarət

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

edəcək Çoxtərəfli Qrup Qarşılıqlı Anlaşma Memorandumu tərəflərinin mövcud öhdəlik və vəzifələrini öz üzərinə götürəcəkdir. Çoxtərəfli Qrup həmçinin İşçi planın hazırlanması ( İşçi planın layihə variantı artıq Memorandum tərəflərinə təklif edilmişdir ) və MHŞT-nin tətbiqi zamanı ortaya çıxan digər məsələlərə dair məsuliyyət daşıyacaq."

Koalisiya Şurası məktuba cavab olaraq bildirilir ki, Koalisiya EİTİ-nin dəyərləndirilməsi indikatorlarının tələblərinə uyğun olaraq ölkədə Qarşılıqlı Anlaşma Memorandumunun tərəflərinin təmsilçiliyi ilə Çoxtərəfli Daimi Qrupun yaradılması ilə bağlı təklifə müsbət yanaşır və bu təşəbbüsü dəstəkləyir: Koalisiya qəbul edir ki, Çoxtərəfli Daimi Qrupun formalaşdırılmasının prosedur məsələlərinin həlli müəyyən zaman tələb edir. Eyni zamanda, biz - İctimai Birliklərin MSŞA Koalisiyası olaraq – ölkəmizdə həyata keçirilən EİTİ prosesinə kölgə salmaq istəmədiyimizi, dəyərləndirmə prosesinin vaxtında və uğurla başa çatmasına yardımçı olmaq kimi xoş niyyətimizi bəyan edərək, Çoxtərəfli Daimi Qrupun yaradılması ilə bağlı əldə olunmuş prinsipial razılaşmanın EITI-ın dəyərləndirilməsi üzrə Yekun Hesabatda əks olunmasını məqsədəuyğun hesab edirik. Bununla yanaşı, hesab edirik ki, Yekun Hesabatda Çoxtərəfli Daimi Qrupun formalaşdırılması ilə bağlı aşağıdakı məsələlərin də dəqiq əksini tapması zəruridir:

- Çoxtərəfli Daimi Qrupun formalaşdırılması prosesinin başa çatdırılması ilə bağlı müddət (son tarix);
- Çoxtərəfli Daimi Qrupun fəaliyyətini təmzimləyəcək normativ sənədin – Əsasnamənin tərəflər arasında razılaşdırılmaqla qəbul edilməsi zəruriliyi;
- Əsasnamədə Qrupun tərkibi, tərəflərin təmsilçilik sayı, Qrupun səlahiyyətləri, tərəflərin hüquq və öhdəlikləri, Qrupun işinin təşkili, qərarların qəbul edilməsi qaydaları kimi məsələlərin əks olunması zəruriliyi;
- Çoxtərəfli Daimi Qrup tərəfindən İşçi Planın tərtibi, qəbulu və ona əməl edilməsinin təşkili zəruriliyi."

✵ ✵ ✵

## Azərbaycan Dövlət Neft Fondunun büdcəsi neftin qiymətinin 70 dollar həddi ilə hesablanıb

Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) 2009-cu il büdcəsi qurumun Müşahidə Şurasına təqdim olunub. Bu barədə yanvarın 28-də məlumat verən Fondun icraçı direktoru Şahmar Mövsumov qeyd edib ki, büdcənin yaxın günlərdə təsdiqlənməsi gözlənilir.
Ş.Mövsumovun sözlərinə görə, Fondun builki büdcəsinin gəlirlərinin 14 mlrd. manatdan yuxarı, xərclərinin isə 5,7 mlrd. manat təşkil etməsi nəzərdə tutulur. Büdcə neftin qiyməti 70 dollar götürülməklə hesablanıb. Lakin Ş.Mövsumov bildirib ki, onlar neftin 1 barelinin qiymətini 50 dollardan götürməklə də hesablamalar aparıblar. Bu halda 2009-cu ildə ARDNF-nin gəlirləri 9-10 mlrd. manata bərabər olacaq: «Bizim əsas məqsədimiz cari ildə Neft Fondunun vəsaitlərin azalmamasıdır».

Dünya bazarında neftin qiymətinin 40-50 dollar ətrafında sabitləşməsi şəraitində Fondun büdcəsinə dəyişiklik ehtimalını dəyərləndirən Ş.Mövsumov qeyd edib ki, hazırkı mərhələdə, yəni ilin əvvəlində hər hansı dəyişiklik məqsədəuyğun olmaz. İcraçı direktor Fonddan neftin hər barelinin 70 dollarlıq qiyməti ilə hesablanan dövlət büdcəsinə transfertlərin artırılmasının mümkünlüyünü istisna etməyib. Onun sözlərinə görə, əgər

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

neftin qiyməti aşağı səviyyədə qalarsa və bu, dövlət büdcəsi üçün artıq davamlı xarakter daşıyan problemlər yaradarsa, büdcənin sekvestri və ya transfertlərin artırılması variantlarının seçilməsi məsələsinə baxıla bilər.

## Azərbaycanda qızıl hasilatına başlanması aprel ayına planlaşdırılır

Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkətindən (ABMƏŞ) APA İnformasiya Agentliyinə bildirilib ki, «Gədəbəy» qızıl yatağı yaxınlığında qızıl emal edəcək zavodun fevral ayının sonunda işlək vəziyyətə gətirilməsi planlaşdırılır. Fevraldan etibarən yataqdan hasil edilən qızıl xammalının süzmə meydançasına çatdırılmasına başlanacaq. Aprelin əvvəlində isə yataqdan qızılın çıxarılmasına və saflaşdırılmasına start veriləcək: “Əvvəllər əlavə vəsaitə ehtiyac yaranacağı gözlənilsə də, bütün işlər layihənin büdcəsi çərçivəsində aparılıb və əlavə maliyyə vəsaitinə ehtiyac olmayıb”.



ABMƏŞ-in apardığı son qiymətləndirmələrə əsasən, «Gədəbəy» yatağının qızıl ekvivalentində çıxarıla bilən ümumi ehtiyatı 1 mln. unsiya, layihənin əsaslı xərcləri isə 30,7 mln. ABŞ dolları həcmindədir. Hesablamalara görə, 1 unsiya qızılın alınması üçün «Gədəbəy»də təxminən 15 ton zənginləşdirilmiş torpaq emal olunmalıdır. Hər 1 ton torpaqdan isə 2 qram qızıl almaq mümkündür.

Növbəti mərhələdə isə Tovuz rayonu ərazisindəki «Qoşa» yatağında istismar işlərinə başlanılacaq.

Qeyd edək ki, Azərbaycanda qızıl istehsalına 2008-ci ilin son rübündə başlanması planlaşdırılsa da, bəzi texniki səbəblərlə bağlı proses ləngiyib. 2009-cu ilin əvvəllərində hasilata martın sonlarında başlanacağı deyilsə də, artıq ayın sonunda bu müddət bir ay da uzadılıb.

ABMƏŞ-lə mineral ehtiyatların istismarına dair bağlanmış hasilatın pay bölgüsü sazişində Azərbaycan hökumətinin iştirak payı 51%, Böyük Britaniyanın «Anglo Asian Mining Plc.» şirkətinin payı isə 49% təşkil edir. Şirkətə müqavilə əsasında 6 sahə verilib. Bu sahələrdən 1-i Naxçıvan MR-da, 1-i Tovuzda, 1-i Gədəbəydə, 3-ü isə işğal altında olan ərazilərdədir (Kəlbəcərdəki «Zod», Ağdərədəki «Qızılbulaq» və Zəngilandakı «Vəcnəli» yataqları). Sazişə əsasən, bu yataqlardan təxminən 400 ton qızıl, 2500 ton gümüş və 1,5 mln. ton mis hasil etmək nəzərdə tutulub.

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

## Koalisiyanın 2009-cu il üzrə fəaliyyət proqramı hazırlanıb

Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasının fevralın 21-də keçiriləcək Ümumi Yığıncağında qurumun 2009-cu ildəki fəaliyyətinin əsas prioritetlərini əks etdirən planın təsdiqlənməsi nəzərdə tutulur. Bu barədəd Koalisiya Şurasının yanvarın 9-da keçirilən iclasında qərar qəbul edilib. Şura fəaliyyət planının işlənməsi üçün Oqtay Gülalıyev, Sevil Həmidova, Azər Mehtiyev, İlham Hüseynli, Fuad Qəhrəmanlı, Fəqan Əliyevdən ibarət işçi qrup yaradıb.

İşçi qrup fəaliyyət istiqamətləri ilə bağlı təklifləri ümumiləşdirərək 2009-cu il üçün 6 fəaliyyət prioriteti və onlar üzrə konkret fəaliyyətləri əhatə edən sənəd layihəsi hazırlayıb. Şuranın fevralın 6-da keçirilən iclasında hazırlanmış sənədin bir sıra əlavələrin nəzərə alınması şərtilə Ümumi Yığıncağın müzakirəsinə təqdim olunması qərara alınıb.

Təklif olunan fəaliyyət prioritetləri aşağıdakılardan ibarətdir:

1. Azərbaycanda MHŞT-nin dəyərləndirilməsi zamanı əldə olunmuş razılaşmaların reallaşdırılması və MHŞT prosesinin təkmilləşdirilməsi;
2. Hesabatlılığın və şəffaflılığın artırılması;
3. ARDNF-nin fəaliyyətinə ictimai nəzarətin gücləndirilməsi, neft gəlirləri və xərcləmələrinin monitorinqi, neft gəlirləri hesabına həyata keçirilən layihələrn səmərəliliyinin qiymətləndiirlməsi;
4. Ölkənin qeyri neft-qaz hasilatı sənayesinin MHŞT-yə qoşulması istiqamətində səylərin artırılması;
5. Koalisiyanın digər vətəndaş cəmiyyəti qurumları ilə əməkdaşlığının gücləndirilməsi, vəkillik fəaliyyətinin genişləndirilməsi və Koalisiyanın fəaliyyətinin ictimaiyyətə çatdırılması işinin təkmilləşdirilməsi;
6. 6. Beynəlxalq və regional əməkdaşlığın genişləndirilməsi .

✵ ✵ ✵

## Neft Fondu investisiya siyasətində korrektə, valyuta tərkibində dəyişiklik etmək niyyətindədir



Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) aktivləri 2008-ci il ərzində 4,3 dəfə artaraq 2009-cu ilin əvvəlinə 8 986,7 mln. manat (11 219,2 mln. ABŞ dolları) təşkil edib. Bu barədə ARDNF-nin icraçı direktoru Şahmar Mövsümov yanvarın 28-də keçirdiyi mətbuat konfransında məlumat verib.

Ş.Mövsümovun sözlərinə görə, ötən il Fondun büdcə gəlirləri 11 864,7 mln. manat, xərcləri isə 4 291,8 mln. manat təşkil edib. Fondun büdcəsinin gəlirləri 17% artıqlaması ilə, xərc hissəsi isə 2% kəsirlə yerinə yetirilib. Ötən il ərzində Fondun neft sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 11 633,5 mln. manat, o cümlədən mənfəət

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

neftinin satışından 11 527 mln. manat, akrhesabı ödənişlərdən 3,6 mln. manat, bonus ödənişlərindən 2,8 mln. manat, xarici sərmayəçilər tərəfindən təhvil verilmiş aktivlərdən 2,7 mln. manat, Bakı-Tiflis-Ceyhan (BTC) layihəsi üzrə dividendlərdən 97,2 mln. manat, tranzit haqlarından 0,2 mln. manat təşkil edib. ARDNF-nin vəsaitlərin idarə olunmasından gəlirləri isə 231,2 mln. manat olub.

Xərclərə gəlincə, qeyd olunan dövrdə 145 mln. manat məcburi köçkünlərin sosial məişət şəraitinin yaxşılaşdırılmasına, 120,6 mln. manat Samur-Abşeron suvarma sisteminin yenidən qurulması, 211,8 mln. manat Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilişi, 3 800 mln. manat dövlət büdcəsinə transfert, 5,3 mln. manat Bakı-Tiflis-Qars dəmir yolunun, 2,3 mln. manat Azərbaycan gənclərinin xaricdə təhsili üzrə dövlət proqramının maliyyələşdirilməsinə yönəldilib. Fondun idarə edilməsi ilə bağlı xərclər 6,8 mln. manat təşkil edib.

Fond hesabat dövründə 26 mln. manat mənfəət vergisi ödəyib, həmçinin valyuta aktivlərinin yenidən qiymətləndirilməsi ilə bağlı büdcədənkənar xərcləri 652,6 mln. manat, vəsaitlərin idarə edilməsi üzrə orta illik gəlirlilik 3,79% təşkil edib. Ş.Mövsümovun sözlərinə görə, ARDNF vəsaitlərinin 52,67%-i ABŞ dolları, 42,95%-i avro, 4,38%-i isə ingilis funt-sterlinqində saxlanılır: «İnvestisia portfelinin tərkibi 93,79% qiymətli kağızlarda, 1,8% qısamüddətli kommersiya kağızları, 3,5% depozitlər və pul bazarı alətləri, 0,91% bank hesablarında yerləşdirilib». İcraçı direktor qeyd edib ki, Fondun valyuta kompozisiyasına dəyişikliklərin edilməsi planlaşdırılır. Onun sözlərinə görə, artıq bununla bağlı təkliflər var və hökumətdə müzakirə olunur.

Ş.Mövsümov onu da bildirib ki, ARDNF dünya maliyyə böhranı ilə əlaqədar öz investisiya strategiyasında korrektə aparmaq niyyətindədir. O, dəyişikliyin korporativ qiymətli kağızlara yönəldilən investisiyalara aid olacağını vurğulayıb. İcraçı direktor hesab edir ki, Fondun konservativ investisiya strategiyası hesabına dünya maliyyə böhranı ARDNF-nin investisiyalarına mənfi təsir etməyib, çünki Fondun vəsaitlərinin çox kiçik bir hissəsi dünya bazarlarında səhmlərdə yerləşdirilib. Ş.Mövsümovun sözlərinə görə, Fondun vəsaitlərinin yalnız 0,02%-i səhmlərdə, əsas hissəsi isə borc öhdəliklərində, o cümlədən suveren borc öhdəliklərində yerləşdirilib.

Hazırda maliyyə böhranın nəticəsində bir sıra iri şirkətlərin səhmləri dünya bazarlarında kəskin ucuzlaşıb. Lakin onların strateji əhəmiyyətini nəzərə alaraq, həmin ölkələrin hökumətləri tərəfindən bu şirkətlərin müflisləşməsi az ehtimal olunandır. Buna nəzərə alaraq, Ş.Mövsumov ARDNF vəsaitinin qismən bu şirkətlərin səhmlərinin alınmasına istiqamətləndiriləcəyini istisna etməyib (APA İnformasiya Agentliyi). Lakin bunun yalnız böhran səngiyəndən sonra reallaşması mümkündür.

## Ötən il Dövlət Neft Fondunun xarici menecerlər idarə edən vəsaitləri üzrə gəlirlilik cüzi olub

Dövlət Neft Fondunun (DNF) xarici menecerlər tərəfindən idarə olunan vəsaitlərdən gəlirliliyi 2008-ci ildə demək olar ki, olmayıb. Fondun icraçı direktoru Şahmar Mövsümovun sözlərinə görə, hökumət xarici menecerlərlə əməkdaşlıq məsələsinə bu il baxmağı planlaşdırır: «Xarici menecerlər bunu dünya bazarlarında baş verən böhranla əlaqələndirir».

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

Qeyd edək ki, hazırda DNF-nin xarici menecerlərə idarəetməyə verdiyi vəsait 240 mln. dollar, o cümlədən Dünya Bankına idarəetməyə verilən məbləğ 120 mln. dollar təşkil edir.

## Koalisiya Neft Fondunun büdcəsinin təsdiq olunmaması ilə bağlı bəyanat verib

İctimai Birliklərin Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası Azərbaycan Respublikası Dövlət Neft Fondu üzrə büdcə prosesinin gedişində qanunvericilkdən kənaraçıxma hallarının baş verməsindən dərin narahatlığını bildirir. Bu barədə Koalisiya Şurasının fevralın 6-da keçirilən iclasında bəyanat qəbul edilib.

Bəyanatda bildirilir ki, ARDNF-nin 2009-cu il üzrə gəlir və xərclərini əhatə edən büdcəsinin Prezident tərəfindən təsdiq olunması ləngiyir: “Artıq 2009-cu ilin fevralıdır və ARDNF-dən verilən məlumatdan aydın olur ki, 2009-cu il üzrə Fondun büdcəsi Müşahidə Şurasına təqdim olunub. Lakin Müşahidə Şurasından büdcənin təsdiq edilməsi üçün Prezidentə təqim olunub-olunmadığı açıqlanmır. Bu, faktiki olaraq, “Azərbaycan Respublikası Dövlət Neft Fondunun illik gəlir və xərclər proqramının (büdcəsinin) tərtibi və icrası QAYDALARI”nın 1.2, 3.3.3, 4.1, 4.3, 4.4, 4.6-cı bəndlərinin tələblərinin pozulmasıdır.

Qeyd edək ki, ARDNF-nin büdcə prosesi Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 12 sentyabr tarixli 579 saylı Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Neft Fondunun illik gəlir və xərclər proqramının (büdcəsinin) tərtibi və icrası QAYDALARI” ilə tənzimlənir. Həmin Qaydalara görə, ARDNF-nin illik büdcəsi hər il sentyabr ayının 5-dən gec olmayaraq Müşahidə Şurasına təqdim olunmalı (4.1-ci bənd), Müşahidə Şurasından isə dövlət büdcəsinin layihəsi ilə birgə baxılması üçün (4.3-cü bənd) Azərbaycan Respublikasının Prezidentinə göndərilməlidir. Prezident tərəfindən ARDNF büdcəsinin təsdiqlənməsinin son müddəti olaraqsa Qaydalarda dekabr ayının 31-i (4.4-cü bənd) müəyyənləşdirilib. Təsdiq olunmuş büdcə dərhal mətbuatda dərc olunmalıdır (4.6-cı bənd). Eyni zamanda Azərbaycan Respublikasının “Büdcə sistemi haqqında” Qanununa görə də ARDNF-nin büdcəsi digər qeyri-büdcə fondları kimi, dövlət büdcəsi ilə eyni vaxtda təsdiqlənməlidir.

Narahatlıq yaradan mühüm bir məqam budur ki, ARDNF büdcəsinin tərtibi və icrası prosesində qanunvericilikdə nəzərdə tutulan müddətlərlə bağlı pozuntulara yol verilməsi halı birinci dəfə baş vermir. Belə ki, Fondun 2007-ci il büdcəsi 2006-cı il dekabr ayının 26-da Prezident tərəfindən təsdiqlənsə də, bu barədə müvafiq fərman, qanunvericiliyin tələblərinin ziddinə olaraq, dərhal mətbuatda dərc olunmayıb. Fərman və büdcə barədə məlumat ARDNF-nin İnternet saytında (www.oilfund.az) 2007-ci il yanvar ayının 8-də yerləşdirilib, rəsmi mətbuatda isə yalnız 2007-ci il yanvarın 31-də dərc edilib (“Azərbaycan” və “Xalq Qəzeti”nin 31 yanvar 2007-ci il tarixli saylarında).

İctimai Birliklərin Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası bütün yuxarıda qeyd olunanları nəzərə alaraq və ARDNF büdcəsinin tərtibi və təsdiqlənməsi üzrə prosedurlara əməl olunmamasının yolverilməz olduğunu qeyd edərək, bunu Azərbaycanın hasilat sənayesindən əldə etdiyi gəlirlərin istifadəsində şəffaflıq prinsipinin təmin olunmaması faktı kimi qiymətləndirir. Eyni zamanda bildiririk ki, bu, ölkənin neft gəlirlərinin toplandığı strateji əhəmiyyətli bir qurumun qanunla idarə olunmaması və onun

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

üzərində sərəncam vermək hüququnun bir əldə cəmləşməsi, Fondun fəaliyyətinə ictimai nəzarət imkanının olmamasının mənfi nəticəsidir."

✲ ✲ ✲

## Koalisiya üzvü EİTİ İdarə Heyətinə tamhüquqlu təmsilçi seçilib

Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasının üzvü, İctimai Vəsaitin Monitorinqi Mərkəzinin rəhbəri İnqilab Əhmədob Beynəlxalq EİTİ İdarə Heyətinin tamhüquqlu üzvü seçilib. Bu barədə məlumat EİTİ Katibliyinin saytında yerləşdirilib.

Xatırladaq ki, ötən il İ.Əhmədov EİTİ İdarə Heyətinin məşvərətçi səs hüquqlu üzvü seçilmişdi. Onun namizədliyini Beynəlxalq PWYP Koalisiyası irəli sürüb.